# TANAP-ın işə düşməsi tarixi hadisədir

Bu, Azərbaycan da daxil olmaqla bölgədə iqtisadi inkişafa çox böyük təkan verdi. Məhz Cənub Qaz Dəhlizi kimi mühüm bir layihənin əsas tərkib hissəsi olan TANAP-ın açılışı Xəzərin qaz ehtiyatlarının tarixdə ilk dəfə olaraq Avropada birbaşa istehlakçılara çatdırılmasına mühüm zəmin yaratdı. TAP-ın tamamlanması ilə Türkiyə və Yunanıstan sərhədindən başlayaraq Azərbaycan qazının artıq Avropa istehlakçılarına çatdırılması 2020-ci ildən etibarən bütövlükdə həm Avropa, həm tranzit ölkələr kimi Türkiyə və Gürcüstanın, həm də istehsalçı ölkə kimi Azərbaycanın iqtisadiyyatına çox mühüm dəyər yaradacaqdır. Ümumilikdə, Azərbaycan qazının birbaşa Avropa bazarına çıxarılması ölkənin uzun müddətə külli miqdarda gəlir əldə etməsinə gətirib çıxaracaq". Bu fikirləri Tahir Mirkişili deyib.

Onun sözlərinə görə, TANAP layihəsinin tamamlanması Azərbaycan iqtisadiyyatının yeni inkişaf üfüqlərinin müəyyən edilməsi baxımından çox vacibdir: "BMT-nin İnkişaf Proqramının hesablamalarına görə, növbəti 60 il ərzində Azərbaycanın qaz ixracından əldə edəcəyi gəlirin ümumi miqdarı təxminən 99 milyard dollardan yuxarıdır. Və yaxud Azərbaycanın 25 il ərzində əldə edəcəyi gəlir ən pessimist göstəricilərə görə təxminən 30 milyard dollardan çoxdur. Nəzərə alsaq ki, Azərbaycanın neft və qaz sahəsində əldə etdiyi gəlirlər qeyri-neft sektorunun inkişafı üçün xüsusi bir maliyyə mənbəyi rolu oynayır, müasir dayanıqlı ictimai model qurmaqda bu layihələrin ölkəmizin gələcəyi üçün çox mühüm əhəmiyyəti vardır".

**"TANAP layihəsinin tamamlanması tarixi hadisədir. Nəzərə alsaq ki, TANAP həm uzunluğuna, həm də borunun diametrinə görə yerləşdiyimiz regionun və Avropanın ən böyük layihəsidir. Ümumilikdə Xəzər dənizinin neft və qaz ehtiyatlarının dünya bazarına çıxarılması hər zaman böyük tarixi hadisə olub. Xatırladaq ki, 2006-cı ildə ilk dəfə olaraq ulu öndər Heydər Əliyevin siyasi iradəsi ilə Bakı–Tbilisi–Ceyhan boru xətti vasitəsilə Azərbaycan neftinin dünya bazarına çıxarılması bütövlükdə bölgənin taleyini dəyişdi.**



T.Mirkişili layihənin Türkiyə iqtisadiyyatı üçün əhəmiyyətindən də danışdı: "Türkiyə üçün layihənin verə biləcəyi iqtisadi dəyərə fikir versək, təxmini hesablamalara görə, Cənub Qaz Dəhlizinin tam işə düşməsi ilə layihənin Türkiyə iqtisadiyyatına məcmu olaraq dolayısı ilə 50 milyard dollara qədər əlavə dəyər verəcəyi planlaşdırılır. Və yaxud türk iqtisadçıların hesablamalarına görə, layihə 2029-cu ilə qədər Türkiyənin daxili məhsuluna 29 milyarda qədər əlavə dəyər verəcək. Qeyd etmək lazımdır ki, layihənin həyata keçməsi ilə Türkiyə və Azərbaycan şirkətləri çox ciddi şəkildə Know-How əldə etmişlər. Məhz Know-How vasitəsilə digər bölgələrdə də yeni layihələr həyata keçirmək mümkün olacaq. Həm Şimali İraqdan, həm də digər bölgələrdən gələn qaz ehtiyatlarının bu kəmər vasitəsilə Avropaya çatdırılması imkanının mümkün olması Türkiyənin enerji bazarında rolunu daha da artıracaq".

T.Mirkişili vurğulayıb ki, Cənub Qaz Dəhlizi Avropanın bu istiqamətdə əldə edə biləcəyi ən böyük uğurdur: "Avropanın bildiyiniz kimi qəbul etdiyi üçüncü enerji paketində enerjinin diversifikasiya olunması ilə bağlı xüsusi bir siyasəti var. Avropa Birliyi buna daima can atır. Məhz Cənub Qaz Dəhlizi layihəsi TAP-ın tamamlanması ilə artıq Avropanın bu istiqamətdə əldə edə biləcəyi ən böyük uğur və sonuncu layihədir. Layihənin həyata keçməsi ilə Avropanın cənub hissəsinin böyük həcmdə qazla təmin olunması məsələsi tam təmin olunacaq ki, bu da Avropanın cənub hissəsinin şimala nisbətən ucuz qaz almasına gətirib çıxaracaq".

Tahir Mirkişilinin fikrincə, layihə istehsalçıdan başlamış istehlakçıya qədər bütün ölkələrin maddi rifahının daha da yaxşılaşmasına, istehsal etdiyi məhsulların rəqabət qabiliyyətinin artmasına və bütövlükdə hər bir ölkənin öz xalqı üçün daha parlaq gələcək qurmasına imkan yaradacaq.

*Hazırladı:*
***M. MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 5 dekabr. S. 11.